UOT 32:93/94

CAVİD SƏMƏDOV
Azərbaycan Dillər Universitetinin doktoranatı
https://orcid.org/0009-0004-9356-5621
cavidsamad@gmail.com

İQTİSADİ SANSKİYALARIN İRANIN BEYNƏLXALQ MÖVQEYİNƏ TƏSİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/239-243

Məqalədə iqtisadi sanksiyaların İranın beynəlxalq mövqeyinə təsiri əhatəli şəkildə təhlil olunur. Araşdırmada göstərilir ki, tətbiq edilən sanksiyalar ölkənin iqtisadi potensialını zəiflətsə də siyasi rejimin davamlılığını tamamilə sarsıda bilməmişdir. Əksinə bəzi hallarda xarici təzyiqlər daxili birliyi gücləndirmiş və hakimiyyətin legitimliyinə əlavə dayaq yaratmışdır. Məqalədə həmçinin qeyd olunur ki, iqtisadi təzyiqlərin regional siyasətə təsiri ziddiyyətli nəticələr doğurmuş bir tərəfdən qonşularla münasibətləri zəiflətmiş digər tərəfdən isə qeyri rəsmi əməkdaşlıq kanallarını təşviq etmişdir. Nəticə etibarilə İran nümunəsi göstərir ki, iqtisadi sanksiyalar birmənalı siyasi nəticələr doğurmur onların təsiri həm zəiflədici həm də gücləndirici elementləri ehtiva edir.

Açar sözlər: İqtisadi sanksiyalar, İran, xarici siyasət, siyasi legitimlik, JCPOA.

Giriş. XXI əsrdə beynəlxalq münasibətlərin əsas xüsusiyyətlərindən biri dövlətlərarası rəqabətdə iqtisadi vasitələrin hərbi və diplomatik alətlərlə yanaşı aparıcı rol oynamasıdır. Bu vasitələr içərisində iqtisadi sanksiyalar xüsusi yerə malikdir. Sanksiyalar bir tərəfdən beynəlxalq hüququn qorunması və təhlükəsizlik mühitinin formalaşdırılması üçün tətbiq olunan mexanizm kimi əsaslandırılır, digər tərəfdən isə hegemon güclərin öz maraqlarını qorumaq üçün istifadə etdikləri siyasi təzyiq aləti kimi dəyərləndirilir.

İqtisadi sanksiyaların ən çox və ən uzunmüddətli tətbiq olunduğu ölkələrdən biri İran İslam Respublikası olmuşdur. 1979-cu il İslam İnqilabından sonra ABŞ ilə münasibətlərin kəskin şəkildə pisləşməsi, İranın bölgədəki geosiyasi iddiaları və nüvə proqramı onun Qərb dünyası ilə münasibətlərini daim gərgin saxlamaqda davam etmişdir. 1980-ci illərdən etibarən ABŞ və sonradan Avropa İttifaqı tərəfindən tətbiq edilən çoxşaxəli sanksiyalar İran iqtisadiyyatının əsas dayağı olan neft sektorunu hədəf almış, nəticədə ölkənin beynəlxalq mövqeyində ciddi dəyişikliklərə yol açmışdır [4, s.49].

Mövcud ədəbiyyat göstərir ki, sanksiyaların təsiri yalnız iqtisadi göstəricilərlə məhdudlaşmaqla qalmır, onların siyasi nəticələri də olduqca ağır olmuşdur. Bir tərəfdən, sanksiyalar İranın daxili siyasətində rejimin legitimliyinə və sosial-iqtisadi sabitliyə təzyiq göstərmiş, digər tərəfdən isə İranı Qərbdən uzaqlaşdıraraq Çin, Rusiya və regiondakı digər aktorlarla əməkdaşlığa vadar etmişdir. Bu baxımdan iqtisadi sanksiyalar İranın beynəlxalq münasibətlərdəki manevr imkanlarını məhdudlaşdırmaqla yanaşı, yeni ittifaqlar qurmasına da səbəb olmuşdur.

İran nümunəsində iqtisadi sanksiyalar siyasi vasitə kimi onun effektivliyini qiymətləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir və mövzunun aktuallığını artırır. Dövlətlərin xarici siyasi davranışlarının iqtisadi sanksiyalar vasitəsilə dəyişdirilmə məsələsi nəzəri müzakirələrin əsas mövzularından biri olaraq qalmaqdadır və İran bu müzakirələrdə xüsusi yer tutmaqdadır.

Tədqiqat. İqtisadi sanksiyalar beynəlxalq münasibətlər nəzəriyyəsində həm realist, həm də liberalist yanaşmalar çərçivəsində geniş müzakirə olunmuşdur. Realistlər sanksiyaları güc siyasətinin davamı, dövlətlərin rəqiblərini zəiflətmək üçün seçdiyi vasitə kimi görürlər. Liberalistlər isə sanksiyaları beynəlxalq təşkilatlar və normativ mexanizmlər vasitəsilə dövlətləri əməkdaşlığa və ya qaydalara riayət etməyə məcbur edən alət kimi izah edirlər. Bu baxımdan sanksiyalar həm güc balansının qorunması, həm də kollektiv təhlükəsizlik mexanizminin işlədilməsi vasitəsi kimi qiymətləndirilir [2, s.26].

Mövcud ədəbiyyatlarda göstərilir ki, İran nümunəsi bu nəzəri mübahisələr üçün xüsusi əhəmiyyət daşıyır. Çünki İran üzərinə tətbiq edilən sanksiyalar həm beynəlxalq hüquqi əsaslara söykənən (BMT Təhlükəsizlik Şurası qərarları çərçivəsində), həm də birtərəfli (xüsusilə ABŞ tərəfindən tətbiq edilən) xarakter daşıyır. Bu ikili məzmun sanksiyaların təsirlərini daha da mürəkkəbləşdirmişdir.

Klassik ədəbiyyatda sanksiyaların effektivliyi barədə ciddi mübahisələr mövcuddur. Johan Galtung (1967) iqtisadi sanksiyaların çox vaxt siyasi məqsədlərə nail olmadığını, əksinə, hədəf ölkədə rejimin sərtləşməsinə və əhalinin hökumət ətrafında birləşməsinə gətirdiyini göstərmişdir. David Baldwin (1985) isə iqtisadi vasitələrin dövlət siyasətində mühüm rolunu vurğulasa da, onların nəticələrinin çox vaxt gözləniləndən fərqli ola biləcəyini qeyd etmişdir [2, s.26].

Nəzəri mübahisələrdə mühüm məsələ sanksiyaların dövlətlərin xarici siyasət davranışlarını dəyişib-dəyişməməsi ilə bağlıdır. Galtung (1967) və Baldwin (1985) kimi klassik müəlliflər sanksiyaların çox vaxt siyasi məqsədlərinə nail olmadığını, əksinə, hədəf ölkələrin rejimlərini daha da sərtləşdirdiyini vurğulayırlar. Bu yanaşma İran nümunəsində də öz təsdiqini tapır. Majidi və Zarouni (2020) isə əlavə edirlər ki, sanksiyalar İranın iqtisadiyyatını zəiflətsə də, ölkəni yeni regional və beynəlxalq ittifaqlar qurmağa sövq etmişdir [2, s.27].

Eyni zamanda, Joseph Nye (1990) sanksiyaları "yumşaq güc" anlayışı ilə əlaqələndirərək onların diplomatik və ideoloji təsir mexanizmləri ilə birlikdə işlədildikdə daha effektiv ola biləcəyini qeyd edir. Robert Gilpin (1981) isə iqtisadi gücün beynəlxalq sistemdə hegemonluq uğrunda mübarizədə əsas vasitələrdən biri olduğunu vurğulayır. Bu yanaşmalar İranın sanksiyalar altında davranışını izah etmək üçün nəzəri baza təmin edir [3].

Müasir araşdırmalar isə göstərir ki, sanksiyalar İranın iqtisadiyyatında ciddi nəticələr doğurmuş, xüsusilə də ÜDM-in azalması, rialın dəyərinin zəifləməsi, neft ixracının kəskin şəkildə düşməsi və inflyasiyanın yüksəlməsi ilə müşayiət olunmuşdur. Digər tərəfdən, bu proses İranı Qərbdən uzaqlaşdıraraq Çin və Rusiya ilə əməkdaşlığa, həmçinin region ölkələri ilə alternativ ticarət kanalları qurmağa məcbur etmişdir.

Ümumilikdə, iqtisadi sanksiyalar İranın beynəlxalq mövqeyinə çoxtərəfli təsir göstərmişdir. Lakin onların əsas siyasi məqsədlərə, yəni rejim dəyişikliyi və ya xarici siyasət kursunda əsaslı dəyişikliklərə nail olması hələ də mübahisəli olaraq qalır.

Beynəlxalq münasibətlərdə sanksiyalar çox vaxt iqtisadi alət kimi təqdim olunsa da, əslində onların mahiyyəti siyasi məqsədlərə yönəlir. Dövlətlər bu vasitə ilə hədəf ölkənin davranışını dəyişməyə, onu müəyyən fəaliyyətlərdən çəkindirməyə və ya daxili siyasətində transformasiyaya nail olmağa çalışırlar. Klassik nəzəriyyəçi Johan Galtung göstərirdi ki, sanksiyaların nəticəsi yalnız iqtisadi çətinliklərlə məhdudlaşmır. Onlar bəzən "milli müqavimət" yaradır və rejimin legitimliyini gücləndirə bilir (Galtung, 1967). Bu baxımdan İran nümunəsində də bu paradoksal təsirin təzahürlərini görə bilirik. On illərlə davam edən məhdudiyyətlər ölkənin iqtisadi həyatını zəiflətmiş, lakin siyasi rejimin möhkəmlənməsi üçün zəmin yaratmışdır.

İranın daxili siyasi mühitində sanksiyaların təsiri ikiqat xarakter daşıyır. Bir tərəfdən, inflyasiyanın yüksəlməsi, milli valyutanın dəyərdən düşməsi, işsizliyin artması və rifah səviyyəsinin azalması kimi nəticələr cəmiyyətdə sosial narazılıqları dərinləşdirmişdir. Bu proses kütləvi etiraz dalğalarına zəmin yaratmış, lakin hakimiyyət həmin narazılıqları "xarici düşmənin təzyiqi" ilə əsaslandıraraq milli birliyi möhkəmləndirməyə çalışmışdır. Xarici təhlükə faktoru daxili mübarizələrdən diqqəti yayındıraraq milli birliyin güclənməsinə xidmət etmişdir.

İranın milli valyutasının dollara nisbətdə xeyli zəifləməsi ilkin tələbat mallarının qiymətlərinin yüksəlməsinə səbəb olub. Lakin eyni prosesləri yaşayan Argentina və Venesuela kimi dövlətlər ilə müqayisədə İranda ərzaq, dərman qıtlığı müşahidə edilmir ki, bu da İranın güclü iqtisadi potensialı və istehsal həcminin böyük olması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, İran üçün iqtisadi sanksiyalar yeni bir hal deyil. Çünki İranın iqtisadiyyatı artıq beynəlxalq qadağalara uyğunlaşıb**.** Hələ 1980-ci ildən tətbiq edilən sanksiyaların nəticəsi olaraq, ölkədə bütün növ istehsalın həcmi artıb. Ərzaq məhsulları, tibbi ləvazimatlar, avtomobil, neft məhsulları yerli istehsaldan ibarətdir və bütün ölkəni təmin edir [8].

Sanksiyaların ən mühüm siyasi nəticələrindən biri İranın xarici siyasət istiqamətlərini dəyişdirməyə məcbur qalmasıdır. ABŞ və Avropa ilə münasibətlərin zəiflədiyi dövrlərdə Tehran alternativ güc mərkəzlərinə (Rusiya və Çinə) daha çox yaxınlaşmışdır. Bu əməkdaşlıqlar sadəcə iqtisadi olmayıb, həm də strateji xarakter daşımışdır. Çin ilə enerji sahəsində imzalanan uzunmüddətli müqavilələr, Rusiya ilə hərbi və təhlükəsizlik müstəvisindəki əməkdaşlıq İranın Qərbdən asılılığını azaltmaq cəhdlərindən hesab oluna bilər.

Joseph Nye-nin "yumşaq güc" anlayışına görə, beynəlxalq münasibətlərdə yalnız hərbi və iqtisadi güc deyil, həm də təsir vasitələrinin cazibə gücü əhəmiyyətlidir. İranın diplomatik davranışı göstərir ki, Qərbdən təcrid olunsa da, Asiya gücləri ilə əməkdaşlıq ona beynəlxalq aləmdə yeni manevr imkanları yaratmışdır.

İrana qarşı tətbiq edilən sanksiyalarda mühüm mərhələ 1979-cu il İslam İnqilabı və ardınca yaşanan ABŞ səfirliyi girov böhranı ilə başlamışdır. Bu hadisədən sonra ABŞ tərəfindən İranın maliyyə aktivləri dondurulmuş, neft hasilatı isə ciddi şəkildə azalmışdır. 1980-ci illərdə İran–İraq müharibəsi dövründə də Qərb dövlətləri silah embarqosu tətbiq etmiş və İran tədricən beynəlxalq iqtisadiyyatdan təcrid olunmuşdur [2, s.28].

2000-ci illərin ortalarından etibarən İranın nüvə proqramı ilə bağlı narahatlıqlar artmış, bu isə 2006-cı ildən başlayaraq BMT Təhlükəsizlik Şurası və ABŞ tərəfindən yeni sanksiyaların qəbul edilməsinə səbəb olmuşdur. 2012-ci ildən isə Avropa Birliyi də bu siyasətə qoşularaq İran bank sistemini SWIFT-dən çıxarmış, enerji sektorunda ciddi məhdudiyyətlər tətbiq etmişdir. Beləliklə, İran iqtisadiyyatı qlobal maliyyə sistemindən kəskin şəkildə təcrid olunmuşdur. 2015-ci ildə İran ilə 5+1 ölkələri (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və Almaniya) arasında imzalanmış JCPOA (Birgə Hərtərəfli Fəaliyyət Planı) beynəlxalq münasibətlərdə mühüm dönüş nöqtəsi hesab olunurdu. Bu razılaşmaya əsasən, İran nüvə proqramını ciddi məhdudiyyətlərə məruz qoymağı, uranın zənginləşdirmə fəaliyyətini məhdudlaşdırmağı və nüvə obyektlərini beynəlxalq nəzarətə açmağı öhdəsinə götürdü. Əvəzində isə ona qarşı tətbiq olunan iqtisadi sanksiyaların əhəmiyyətli hissəsi aradan qaldırıldı. Bu dövr qısa müddət ərzində İran iqtisadiyyatına müəyyən nəfəsalma imkanı verdi: neft ixracı artdı, beynəlxalq maliyyə sisteminə qismən qayıdış təmin olundu, Avropa şirkətləri ilə yeni əməkdaşlıq müqavilələri imzalandı. Bundan başqa, İranın qlobal sistemdə diplomatik legitimliyi də gücləndi. Bununla belə, ABŞ-ın 2018-ci ildən sonra "maksimum təzyiq" siyasətinə qayıtması İranın diplomatik imkanlarını ciddi şəkildə daraltmış, Birgə Hərtərəfli Fəaliyyət Planı (JCPOA) çərçivəsində əldə edilən müvəqqəti yumşalmanı tamamilə aradan qaldırmışdır. Siyasi baxımdan bu hadisə iki mühüm nəticə doğurdu. Birincisi, İran daxilində "Qərblə yaxınlaşma" siyasəti etibarsız hesab olundu. İkincisi, beynəlxalq səviyyədə JCPOA təcrübəsi göstərdi ki, böyük güclərin daxili siyasi dəyişiklikləri beynəlxalq müqavilələrin davamlılığını şübhə altına alır [1, s.43].

Yaxın Şərq regionu İranın xarici siyasətində prioritet mövqeyə malikdir və sanksiyaların burada doğurduğu təsirlər xüsusi diqqətə layiqdir. Enerji gəlirlərinin azalması İranın regional layihələrini məhdudlaşdırsa da, Tehran Suriyada, İraqda və Livanda öz təsir imkanlarını qorumağa nail olmuşdur. Eyni zamanda, qonşu ölkələrlə əlaqələrdə müəyyən dəyişikliklər baş vermişdir. Türkiyə və Birləşmiş Ərəb Əmirlikləri bəzən İran məhsullarının tranzitində vasitəçi rolunu oynamış, lakin bu, münasibətlərin davamlılığına zəmanət verməmişdir. Qonşularla ticarət əlaqələrinin zəifləməsi İranın regiondakı iqtisadi dayaqlarını zəiflətmiş olsa belə, bəzi ölkələrlə qeyri-rəsmi əməkdaşlıq kanalları yaratmasına səbəb olmuşdur.

İqtisadi sanksiyaların konkret nəticələri – neft ixracının azalması, investisiya axınının dayanması, bank sektorunun təcridi – İranı qlobal iqtisadi sistemdən kənarlaşdırmışdır. Lakin bu nəticələrin siyasi şərhi daha mürəkkəbdir. Bir tərəfdən, zəif iqtisadi baza İranın beynəlxalq təsirini məhdudlaşdırmışdır. Digər tərəfdən, daxili istehsalın stimullaşdırılması və alternativ ticarət yollarının axtarışı rejimə müəyyən dərəcədə çeviklik qazandırmışdır. Burada sanksiyaların ikili təsiri aydın görünür: bir tərəfdən İranın təsir dairəsi zəifləyir, digər tərəfdən isə o, mövcud resurslarını daha effektiv yönəltməyə məcbur qalır.

Gilpinin nəzəriyyəsinə uyğun olaraq, iqtisadi gücün zəifləməsi beynəlxalq nüfuzun azalmasına səbəb olur. Lakin İran nümunəsi göstərir ki, iqtisadi zəiflik hər zaman siyasi zəiflik demək deyil. Əksinə, ideoloji əsaslı mobilizasiya və "özünütəminat siyasəti" sanksiyaların yaratdığı boşluğu qismən doldura bilir. Bu isə sanksiyaların nəticələrinin yalnız iqtisadi göstəricilərlə ölçülməsinin yetərli olmadığını ortaya qoyur.

İran üzərinə tətbiq olunan iqtisadi sanksiyalar onun beynəlxalq mövqeyinə çoxşaxəli təsir göstərmişdir. Qlobal sistemdə təcrid olunma və iqtisadi zəifləmə ölkənin beynəlxalq gücünü azaltsa da, regional siyasətdə və alternativ ittifaqlarda yeni imkanlar yaratmışdır. Bu ikili nəticə göstərir ki, sanksiyalar yalnız iqtisadi vasitə deyil, həm də siyasi alətdir və onların təsiri müxtəlif istiqamətlərdə fərqli nəticələr doğura bilir.

Nəticə. İran iqtisadiyyatının ən zəif nöqtəsi onun enerji sektorundan – xüsusilə də neft və qaz ixracından yüksək asılılığıdır. Bu səbəbdən də sanksiyaların ilk hədəfi məhz enerji sektoru olmuşdur. 2006-cı ildən etibarən qəbul edilən BMT Təhlükəsizlik Şurası qərarları və ABŞ-ın birtərəfli məhdudiyyətləri başlanğıcda İran iqtisadiyyatına ciddi zərbə vurmasa da, 2012-ci ildən sonra Avropa Birliyinin də sanksiyalara qoşulması ilə bu tədbirlər daha təsirli hala gəlmişdir. Enerji, nəqliyyat, bankçılıq və digər sektorları kəskin şəkildə təsir etmiş, nəticədə İran iqtisadiyyatı böyük ölçüdə sanksiyalardan zərər görmüşdür [9, s.4].

Aparılan təhlil göstərir ki, iqtisadi sanksiyalar İran nümunəsində sadəcə iqtisadi çətinliklər doğuran vasitə deyil, eyni zamanda mürəkkəb siyasi nəticələrə yol açan mexanizmdir. Onlar ölkənin iqtisadi potensialını zəiflətmiş, beynəlxalq maliyyə və ticarət əlaqələrini məhdudlaşdırmışdır. Lakin bu zəiflik gözlənildiyi kimi siyasi rejimin çökməsinə gətirməmiş, əksinə, müəyyən hallarda mövcud hakimiyyətin legitimliyini möhkəmləndirən amilə çevrilmişdir.

Sanksiyalar həmçinin İranın xarici siyasət kursunu dəyişməyə məcbur etmişdir. Qərblə münasibətlərin zəifləməsi ölkəni alternativ güc mərkəzlərinə yaxınlaşdırmış, regional siyasətdə isə siyasi imkanlarını məhdudlaşdırsa da, təsir dairəsini tamamilə itirməsinə səbəb olmamışdır. Bu, iqtisadi təzyiqlərin hər zaman siyasi transformasiya ilə nəticələnmədiyini göstərir.

Ümumilikdə, İran nümunəsi sanksiyaların təsir mexanizmlərinin mürəkkəb xarakter daşıdığını sübut edir. Onlar həm zəiflətmə, həm də müqaviməti gücləndirmə potensialına malikdir. Bu səbəbdən iqtisadi sanksiyalar beynəlxalq siyasətdə birmənalı nəticə verən alət deyil, əksinə, müxtəlif şərtlərdən asılı olaraq fərqli nəticələr doğuran strateji vasitə kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. Aghamohammadi M. 1980–2020 Dönemi: Yaptırımların İran'ın Uluslararası Ticaretine Etkileri. // İstanbul Ticaret Üniversitesi Dış Ticaret Dergisi, 2024, Cilt 2, Sayı 2, s. 42–60.
2. Aslan R. ABD Yaptırımlarının İran Ekonomisine Etkileri. // Sosyal Bilimler Araştırmaları Dergisi (Journal of Social Sciences Researches), 2023, Cilt 3, Sayı 2, s. 25–49.
3. İran Ekonomik Yaptırımlarının Türkiye Açısından Bağlayıcılığı: Lojistik Sektorüne Etkisi(İran Ambargosu). OzgünLaw \URL:https://www.ozgunlaw.com/makaleler/iran-ekonomik-yaptirimlarinin-turkiye-acisindan-baglayiciligi-lojistik-sektorune-etkisi-iran-ambargosu-3225 [10.09.2025]
4. Kayalp M.E., Türkmenoğlu Köse D. ABD–İran İlişkileri: İran'ın Rolü ve Ekonomik Yaptırımlar Üzerine Bir Değerlendirme. // InTraders International Trade Academic Journal, 2022, Cilt 5, Sayı 1, s. 47–67.
5. Majidi A.F., Zarouni Z. The Impact of Sanctions on the Economy of Iran. // The Open Access Journal of Resistive Economics (OAJRE), 2020, Vol. 8, No. 4, s. 49–65.
6. Majidi A.F., Zarouni Z. The Impact of Sanctions on the Economy of Iran. // The Open Access Journal of Resistive Economics (OAJRE), 2022, Vol. 10, s. 11–27.
7. Rəhimlu Benis, A. (2014). İran İslam Respublikasının iqtisadi inkişafında kiçik sənayenin rolu və perspektivi (dissertasiya işi,). Bakı Dövlət Universiteti. - https://aak.gov.az/upload/dissertasion/iqt/iqt_n_rab_22_04_14.pdf [10.09.2025].
8. Sanksiya hədəsi ilə yaşayan Tehran – İran iqtisadiyyatının böhrandan çıxış yolu varmı? // Ovqat.com. – 17.09.2018. – URL: https://ovqat.com/dunya/24647-sanksiya-hdsi-il-yaayan-tehran-ran-iqtisadiyyatnn-bohrandan-cx-yolu-varm.html [10.09.2025].
9. Telci İ.N. Ağırlaştırılmış Ekonomik Yaptırımlar: Trump İran'dan Ne İstiyor? // SETA Perspektif, 2018, Sayı 208, s. 1–6.

ДЖАВИД САМАДОВ
Докторант Азербайджанского университета языков

ВЛИЯНИЕ ЭКОНОМИЧЕСКИХ САНКЦИЙ НА МЕЖДУНАРОДНОЕ ПОЛОЖЕНИЕ ИРАНА

Данная статья рассматривает влияние экономических санкций на международное положение Ирана, с особым акцентом на их политические аспекты. Подход сочетает синтез литературы с сопоставительным анализом трёх этапов: ужесточение после 2012 года, ослабление в рамках

СВПД в 2016–2018 гг. и новая эскалация после 2018 года. Результаты показывают, что длительные санкции привели к значительным экономическим потерям — обесцениванию валюты, инфляции, снижению инвестиций и сужению торговых каналов. Однако в политическом плане последствия не являются однозначными: повествование о внешнем давлении иногда усиливает внутреннюю мобилизацию и устойчивость режима, тогда как «экономика сопротивления» выдвигает на первый план местное производство и альтернативные пути снабжения. Во внешней политике ослабление связей с Западом сокращает дипломатические возможности Ирана, но одновременно углубляет сотрудничество с такими центрами, как Россия и Китай. На региональном уровне отношения с соседями колеблются и появляются неформальные механизмы. В целом санкции оказывают как ограничивающее, так и адаптационное воздействие; следовательно, их эффективность в достижении политических целей во многом зависит от контекста, последовательности и наличия параллельных дипломатических каналов.

Ключевые слова: экономические санкции, Иран, внешняя политика, политическая легитимность, СВПД.

JAVID SAMADOV
Doctoral student at Azerbaijan University of Languages

THE IMPACT OF ECONOMIC SANCTIONS ON IRAN'S INTERNATIONAL POSITION

This article examines the impact of economic sanctions on Iran's international position, with a particular focus on their political dimensions. The approach combines a synthesis of the literature with a comparative reading of three phases: post-2012 tightening, the 2016–2018 JCPOA relief, and the re-escalation after 2018. The findings indicate that prolonged sanctions have produced significant economic losses-currency depreciation, inflation, declining investment, and narrowing trade channels. Politically, however, outcomes are not unidirectional: the narrative of external pressure at times bolsters domestic mobilization and regime resilience, while a "resistance economy" foregrounds local production and alternative supply routes. In foreign policy, diminished ties with the West reduce Iran's diplomatic options yet simultaneously deepen cooperation with centers such as Russia and China. Regionally, relations with neighbors fluctuate and informal mechanisms emerge. Overall, sanctions exert both constraining and adaptation-inducing effects; hence their effectiveness in achieving political objectives depends strongly on context, sequencing, and the presence of parallel diplomatic channels.

Keywords: Economic sanctions, Iran, foreign policy, political legitimacy, JCPOA.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: s.e.d. Aida Yusifzadə, s.e.d. Sevinc Yusifzadə.